

Arzu Əsəd



*Bütün dünya od içində, ölkəm əmin əllərdədir,*
*Kim yaşadıb, kim ucaldıb, yenə həmin əllərdədir.*
*Odlar yurdu, nur saçırsan, qaranlıqlar gendən keçir,*
*Avropanın gələcəyə addımları səndən keçir!..*

*Təkcə döyüş meydanında deyil bu gün, hər yerdədir,*
*Müharibə dərindədir, beyinlərdə, qəlblərdədir.*
*Güc silahda, tətikdə yox, tətikdəki barmaqdadır,*
*Barmaqdakı istəkdədir, niyyətdədir, güc ruhdadır.*
*Hər qüvvətin, hər qüdrətin arxasında zəka durur.*
*Milyonların, milyardların taleləri həll olunur*
*Beyinlərin güləşdiyi kürsülərdə, masalarda,*
*Ağılların birləşdiyi qərarlarda, yasalarda.*
*Zaman axır, dünya dönür təbəssümlər savaşında,*
*Məzlumların ahı sönür "timsahların" göz yaşında,*
*Müharibə aşkardadır, müharibə gizlindədir,*
*Vicdanların çölündədir, arzuların içindədir...*
*Qlobalist təfəkkürün allahlıq iddiasında,*
*Xaç gəzdirən terroristin "Allah-Əkbər" sədasında...*

# Ölkəm əmin əllərdədir

*Açıldıqca qat-qat zaman, hər qatında bir reallıq,*
*İrreallıq, sürreallıq, indi də hiperreallıq.*
*Bir qəribə dünyadayıq - cavabları suallardır.*
*Bir sehirli röyadayıq - gerçəkləri xəyallardır,*
*Ağıl darılır, gücənir, bətnindəkilər boğulur,*
*Metafizik sancılardan bir absurd dünya doğulur.*
*Dəyərlər necə saxlansın altında bir mütləq yoxsa,*
*İnsan nəyə can atsın ki, üstündə bir Allah yoxsa,*
*Dünya Xaos girdabında, içə, dışa bax, görünməz,*
*Bu tozda, bu tozanaqda, əlbəttə, Allah görünməz...*

*Müharibə aşkardadır, müharibə gizlindədir,*
*Kəlmələrin çölündədir, cümlələrin içindədir.*
*Sözlər məsum, sözlər dustaq mənaların girovunda,*
*Ağla, zamana dirənən ehtiraslar buxovunda.*
*Vicdanlarda yara açmış "mayn kampf"lar, "miatsum"lar -*
*İnsanlığın tarixində dərin, qorxunc uçurumlar,*
*Nələr aldı talelərdən, ömürlərdən nələr, nələr*
*Hitlerlərin, nejdelərin qan qusduğu fəlsəfələr.*
*Şirnikdirib xəyalları, bulandırıb ağılları*
*İliklərə yeridilir "ali irq"in nağılları*
*Millətləri haqq yolundan - gerçəklikdən azdırmağa,*
*Öz xalqına öz əlilə məzarını qazdırmağa...*

*Əməl, əməl, əməl, əməl, söz əməlin meyvəsidir,*
*Söz qopunca əməlindən sözdə batdı fəlsəfələr -*
*İnsanlığa nə sehirlər, nə dünyalar vəd edirlər,*
*Zehinləri, xəyalları boşluqlara qərq edirlər.*
*Ağıl çoxda azıb qalır, dönüb yenə təkdən keçir,*
*Yerin-göyün ağırlığı gəlib bir ürəkdən keçir.*
*Allah yaradan dunyadan daha gözəl bir dünya yox,*
*Vətən, millət sevgisindən daha böyük bir məna yox.*
*O nağıllar, o sehirlər şərin köhnə havasıdır,*
*Yüksək sözlər bəhanədir, dava yorğan davasıdır.*
*Min ayının min oyunu bu torpağın başındadır,*
*Hiylələrin ilki, sonu bu torpağın başındadır.*

*Müharibə aşkardadır, müharibə gizlindədir -*
*Həqiqətin çölündədir, yalanların içindədir.*

*Kosmopolit düşüncənin şəriksiz təntənəsində,*
*Neftin, qazın qiymətində, dolların məzənnəsində...*
*Müharibə "yer altında", müharibə yer üstündə,*
*Müharibə Qarabağda, Suriyada, Fələstində...*
*Nə qarğışdır, nə lənətdir donub qalıb ancaq Şərqdə,*
*Müharibə Yaxın Şərqdə, Orta Şərqdə, Uzaq Şərqdə.*
*Harda müsəlman görürəm orda ölüm, qırğın, qada,*
*Raketləri tuşlayıblar göy üzündə Allaha da.*
*Yaranmışın günahına, Yaradanın inadına,*
*İnsan oğlu min illərdir ölüm saçır din adına.*
*Nədən qorxdu, onu sevdi, qorxusuna can atdı o,*
*Cəhənnəmin qorxusundan cəhənnəmi yaratdı o.*
*Hər din görünməz, bilinməz bir ali varlığa şərik,*
*Öldürülə bilmək üçün potensial kafirlərik.*
*Elə-belə öldürəndə adı olur - qətl, zülüm,*
*Ən yaxşısı insanları Allah adına öldürün...*

*On illərdir Əfqanıstan çevrilibdir göz dağına,*
*Qurşun yağır, bomba yağır Mövlananın torpağına.*
*Ağrı çöküb, əzab çöküb bu diyarın havasına,*
*Sevda yurdu, irfan yurdu dönüb ölüm yuvasına.*
*Cəhənnəmi bu dünyada diri gördü əfqan xalqı,*
*Dünya gəldi üzərinə, yıxılmadı, ayaqdadır.*
*Neçə qanlı müstəbidin dişlərini sökdü burda,*
*Supergüclər silkələndi, imperiylar çökdü burda...*
*Azərbaycan bu diyara ilham verdi, ümid verdi,*
*Qaranlıqdan aydınlığa, yüksəlişə yol göstərdi.*
*Əsrlərdir çağırırdı kimsəsizlər kimsəsini,*
*Həsrət bitdi, ümid güldü, Mövlana tapdı Şəmsini.*
*Güllələrin, bombaların ürkütdüyü ürəkləri*
*Ağıl, məntiq cilovladı, sevgi, şəfqət ram elədi.*
*Zora meydan oxuyan xalq "can" sözünə boyun əydi,*
*Keşkə illər, on illər heç o qanlar tökülməsəydi...*
*Tarix yenə göstərdi ki, güc insanda, güc ruhdadır.*
*Güc bombada, raketdə yox, güc zorda yox, güc haqdadır.*
*Güc - Musanın, Məhəmmədin eşitdiyi o Səsdədir,*
*Güc - İsanın ölülərə üfürdüyü Nəfəsdədir.*
*Güc - idrakın genişliyi, kainatın sonsuzluğu,*
*Bu dünyaya, bu ömürə sığmadı ki insan oğlu.*
*Arzuları ona geniş, üfüqləri ona dardır;*
*Təməlində dünya ilə əzəli bir savaş vardır.*

*Nələr gördün nəsil-nəsil, zaman-zaman Azərbaycan,*
*Yenə qalib çıxacaqsan tarixlərin sınağından.*
*Sanırdılar kiçilərsən, kəsilərsən, bölünərsən,*
*Əriyərsən, qarışarsan, Yer üzündən silinərsən.*
*Bilmədilər sən başqasan, sən tilsimsən, sən sehirsən.*
*Zərrə qalsan yenə dönüb bir dünyaya çevrilərsən.*
*Bilmədilər qüdsiyyətdən yoğrulubdur bu torpaqlar,*
*Bu millətin üzərində ilahinin nəzəri var.*
*Bütün dünya od içində, ölkəm əmin əllərdədir,*
*Kim yaradıb, kim qoruyub, yenə həmin əllərdədir.*

*Azərbaycan - Yaradanın insanlığa şəfqət payı,*
*Yer üzünə xeyir yayır, sevgi yayır, barış yayır.*
*Zalımların qarşısında, məzlumların yanındadır,*
*Ədalətə könül vermək millətimin canındadır.*
*Bu dünyanı qorxuzmağa atomu yox, nüvəsi yox,*
*Amma onun işığı çox, sevgisi çox, hörməti çox.*
*Bir səadət körpüsüdür insanlığın arasında,*
*Adı daha sevilənlər, sayılanlar sırasında.*
*Bu gün dünya onu bilir, bu gün dünya onu seçir,*
*Bu torpağın ürəyindən qitələrə yollar keçir.*
*Şərqin, Qərbin sərvətləri bu yollarla daşınacaq.*
*Nə üfüqlər açılacaq insanlığa qucaq-qucaq.*
*Biz aqilik, biz zərgərik, meyarları dəyişirik,*
*Ürəkləri əridirik - əyarları dəyişirik.*
*Yüz illərlə daş kəsilmiş qəlibləri dağıdırıq.*
*Şərqdən Qərbə, Qərbdən Şərqə nur selləri axıdırıq.*
*Kökümüzlə, ruhumuzla bu torpağa sarılmışıq,*
*Bir sevdaya, bir inama, bir bayrağa sarılmışıq.*
*Əsrlərin bülöv daşı - millətimin xeyri, şəri,*
*Ruhumuzda cilalanır Avropanın dəyərləri.*
*Biz ki nurdan yoğrulmuşuq, biz ki nurdan yaranmışıq -*
*Yolumuza kölgə salmaz hardan düşür, düşsün işıq.*
*İşimizdə haqq, ədalət, sevdamızda güc, qətiyyət -*
*Üzümüzə, bəxtimizə güləcəkdir qalibiyyət,*
*Ölkəm əmin əllərdədir,davam edir mübarizə.*
*Ulu Öndər özü kimi inandığı bir varisə*
*Güvənərək, bir inamla demədimi illər qabaq:*
*"Azərbaycan günəş kimi Yer üzünə saçılacaq!"*
*Odlar yurdu, nur saçırsan, qaranlıqlar gendən keçir,*
*Avropanın gələcəyə addımları səndən keçir!*